Ədalət.- 2021.- 16 yanvar. S.13

Aşurov Yaqub

# Yaşayacam

*Mərd önündə öyünmədən,*
*Namərdlərə əyilmədən,*
*Öz-özümə deyinmədən*
*Beləcə də yaşayacam.*

*Yolumu kəssələr qəsdən,*
*Düşməyəcəm mən həvəsdən.*
*İlham alıb,dostlar,sizdən*
*Beləcə də yaşayacam.*

*Çalışacam yorulmadan,*
*Bir kimsəyə yük olmadan*
*Alışacam zaman-zaman*
*Beləcə də yaşayacam.*

*Zaman keçir dayanmadan,*
*Gələcəyə yoxdur güman.*
*Ömür mənə  versə aman*
*Beləcə də yaşayacam.*

*Ruhum təzə,qəlbim cavan,*
*Yol gedirəm aram-aram.*
*Nə deyirsə desin zaman*
*Beləcə də yaşayacam.*

# Nə olar

*Sən gedəli yuxu tutmur gözümü,*
*Sən gedəli itirmişəm özümüŞ*
*Qalmayıbdı ürəyimin dözümü,*
*Bir də məni atıb getmə,nə olar*

*Sənin eşqin dövrə vurur qanımda,*
*Sənin eşqin can yaradır,canımda,*
*Hara getsən apar məni yanında*
*Bir də məni atıb getmə,nə olar*

*Sən gedəli dünya mənə dar oldu,*
*Sən gedəli dilim susdu,lal oldu.*
*Ötəri söz ürəyimdə xal oldu*
*Bir də məni atıb getmə,nə olar*

*Sən gedəli həyat ötür mənasız,*
*Sən gedəli dolanıram nizamsız.*
*Lal gəzirəm,dalğasızam,tufansız,*
*Bir də məni atıb getmə,nə olar*

*Sən gedəli halım yaman dəyişdi,*
*Sən gedəli günüm ilə dönüşdü.*
*Hərdən-hərdən dodağım da büzüşdü*
*Bir də məni atıb getmə,nə olar*

*Hər sözümə”yox”kəlməsi dilində*
*Əriyirsən bu yoxların içində.*
*Mən yanıram,yanırsan sən özün də*
*Bir də məni atıb getmə,nə olar*

*Sən gedəli halım yaman dəyişdi,*
*Səninlə günlərim yadıma düşdü.*
*Yaqub səni andı,sənlə görüşdü*
*Bir də məni atıb getmə,nə olar*